UOT 902 **FUAD HÜSEYNOV**

AMEA-nın Lənkaran Regional Elmi Mərkəzinin elmi işçisi
Fuadhuseyn6161@gmail.com

ƏLİKÖMƏKTƏPƏ ABİDƏSİNİN DAŞDAN DÜZƏLDİLMİŞ ƏMƏK ALƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/243-249

Məqalədə Azərbaycanın cənub-şərq bölgəsinin bir hissəsi olan Muğanda-Cəlillabad rayonu ərazisində yerləşən erkən əkinçilik dövrü qədim yaşayış yeri olan Əliköməktəpə eneolit abidəsində 1970-ci illərdə aparılan arxeoloji qazıntı işləri zamanı aşkar edilmiş, oturaq əkinçi və maldar qəbilələrə aid olan və onların məişət və təsərrüfat həyatında önəmli yer tutan daşdan düzəldilmiş müxtəlif məzmunlu əmək alətləri haqqında məlumat verilmişdir. Belə ki, Əliköməktəpə sakinləri Azərbaycanın digər həmdövr yaşayış məskənlərində yaşayan sakinlər kimi məişət və təsərrüfat həyatında, çox ustalıqla düzəldilən digər məişət avadanlıqları ilə yanaşı obsidian və çaxmaqdaşından hazırlanmış dən daşları, həvəngdəstələrdən, baltalardan və müxtəlif kəsici alətlərdən və s. istifadə etmişlər. Məqalədə həmçinin Əliköməktəpə eneolit dövrü sakinlərinin istifadə etdikləri bu əmək alətlərinin, Azərbaycanın digər eneolit dövrü abidələrində aşkar olunmuş daş əmək alətləri ilə müqayisəli təhlili verilmiş və bu əmək alətlərinin bəzi nümunələri düzəldilərkən istifadə edilən xam malın necə əldə edilməsinə və qonşu tayfalarla ehtimal olunan iqtisadi əlaqələrinə azda olunsa toxunulmuşdur.

Açar sözlər: Dən daşı, həvəngdəstə, balta, çəkməçi bıçağı, oraq dişi, bıçaqvari lövhə, qaşov, sıyırğa, iskənəvari alət.

Giriş. Azərbaycanın cənub-şərq bölgəsinin erkən əkinçilik mədəniyyəti dövrünə aid qədim yaşayış yerlərindən tapılan maddi-mədəniyyət nümunələrinin bir hissəsini daşdan düzəldilmiş əmək alətləri təşkil edir. Bu əmək alətləri əsasən Əliköməktəpə, Polutəpə, Paşatəpə, Alxantəpə, Qurudərə I və Qurudərə II adlı neolit-eneolit abidələrindən və Kür-Araz mədəniyyəti dövrünə aid Mişarçay I abidəsindən əldə edilmişdir. Biz də bu abidələrdən biri olan və 1970-ci illərdə əsaslı arxeoloji qazıntılar aparılmış Əliköməktəpə eneolit abidəsinə diqqət ayırmışıq. Belə ki, burada aparılan arxeoloji tədqiqatlar nəticəsində erkən əkinçilik mədəniyyətinə aid zəngin maddi-mədəniyyət nümunələri o, cümlədən daş, sümük və gildən düzəldilmiş müxtəlif təyinatlı məişət və təsərrüfat avadanlıqları aşkar olunmuş və elmi ictimaiyyətə təqdim olunmuşdur. Aşkar olunan maddi-mədəniyyət nümunələrinin bir hissəsini də əkinçilik təsərrüfatının əsas gösdəriciləri olan və daşdan düzəldilmiş əmək alətləri təşkil edir.

Əliköməktəpə abidəsinın daşdan düzəldilmiş əmək alətlərinin əsas hissəsi çaxmaqdaşı və obsidiandandır. Müəyyən olunmuşdur ki, burada çaxmaq daşından düzəldilmiş əmək alətləri 78.3%, obsidiandan düzəldilmiş əmək alətləri isə 21.7% təşkil edir [14, s.21]. Bu isə Əliköməktəpədə çaxmaq daşından düzəldilmiş əmək alətlərinin obsidiandan düzəldilmiş əmək alətlərinə nisbətən 3-4 dəfə çox istehsal olunduğunu göstərir. Bunun əsas səbəbi isə İncəçayın yatağında və yaxınlığdakı dağlarda çaxmaq cinsli daşların kifayyət qədər çox olmasıdır. Əmək alətləri düzəldilərkən obsidiandan az istifadə olunması isə həm İncəçayın yatağında, həm də yaxınlığdakı dağlarda bu cinsdən olan daşların mövcüd olmaması ilə bağlı olmuşdur. Tədqiqatçı B.B.Arazovaya görə Əliköməktəpə yaşayış yerinə obsidian cinsli daşlar xam mal kimi yaşayış yerindən 300 km-lik məsafədə yerləşən Kəlbəcər yataqlarından gətirilmişdir [14, s.21].

Sual oluna bilər ki, bu qədər uzun yolu, həm də dağlıq əraziləri Əliköməktəpə sakinləri necə qət etmişlər? Əlbəttə, bu fikir çoxda inandırıcı görünmür, çünki bu qədər uzun yolu getmək və üstəlik material toplayaraq geri qayıtmaq çox çətin proses tələb edir. Bundan başqa etiraf etməliyik ki, Azərbaycanın cənub-şərq bölgəsi arxeoloji cəhətdən olduğu kimi geoloji cəhətdəndə çox zəif öyrənilmişdir. Bu baxımdan obsidian daşının yaşayış yerindən bir qədər uzaqda yerləşən dağlarda olması və ya olmaması dəqiq təstiqlənməyib. Məhz bu səbəblərdən biz Əliköməktəpə yaşayış yerinə obsidian daşının xam mal kimi hardan gətirilməsi fikrini bir necə versiya üzərində qura bilərik.

1. Obsidian daşları yaşayış yerindən uzaqda yerləşən Talış dağları və onun ətəklərindən ov zamanı təsədüfən rast gəlinərək yığılmışdır.


2. Obsidian daşları Talış dağları ərazisində və ətraf ərazilərdə mövcud olmuş, lakin indiyənə qədər aşkar olunmamış hansısa həmdövr yaşayış yeri sakinlərindən mübadilə yolu ilə alınmışdır.

3. Ən başlıca fikir isə Əlikəməktəpə sakinləri obsidian daşlarını Muğanda yerləşən digər həmdövr yaşayış yeri sakinlərindən və yaxud da Muğanın qonşuluğunda yerləşən Qarabağ düzənliyində tədqiq edilmiş İlanlıtəpə və Lələtəpə yaşayış yeri sakinlərindən mübadilə yolu ilə almışlar.

Sonuncu fikir, yəni obsidian daşlarının Muğanda və yaxud Muğanın qonşuluğunda yerləşən həmdövr yaşayış yeri sakinlərindən mübadilə yolu ilə alınması fikri daha inandırıcı görünür. Belə ki, bu fikirə gəlməyimizin əsas səbəblərindən biri, hər iki yaşayış yerində inşa edilən tikililərin bir-birinə və eləcə də Əlikəməktəpədə inşa edilən tikililərə daha çox yaxın və ya oxşar olması, ikincisi isə Gəncə-Qazax düzənliyindəki həmdövr abidələrindən [22, s.96-103] fərqli olaraq Qarabağda yerləşən İlanlıtəpə abidəsindən yalnız obsidiandan düzəldilmiş əmək alətlərinin tapılması və eləcə də Lələtəpə abidəsində daş əmək alətlərinin əsas hissəsinin obsidiandan hazırlanmasıdır [7, s.88]. Qeyd edək ki, Qarabağda aşkar edilən digər bir həmdövr abidəsi İsmayilbəytəpədə və eləcədə Lələtəpədə [7, s.85-87] də aşkar edilmiş tikili qalıqları, İlanlıtəpə və Əlikəməktəpədə olduğu kimi oval, dairəvi və dördkünc formada inşa edilmişlər. Bundan başqa tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, İsmayılbəytəpə sakinləri də əmək alətləri düzəltmək üçün istifadə etdikləri obsidian daşlarını qonşu ərazilərdən, xüsüsən Zəngəzur (Geyqhasar-Ermənistan), Cikini (Gürcistan) və Sarıqamış (Qars, Türkiyə), ərazilərindəki yataqlardan [7, s.86] birbaşa və ya mübadilə yolu ilə əldə etmişlər. Buradan belə nəticə çıxarmaq olar ki, artıq neolit və eneolit dövrlərində Azərbaycanda yaşayan insanlar bir-biriləri ilə əlaqələr yaratmış və bir-birilərinin həyat tərzi ilə yaxından tanış olmuş və onlara lazım olan xammal və əşyaları mübadilə yolu ilə əldə edə bilmişlər. Son illərdə Muğanın erkən əkinçilik dövrü abidələri olan Paşatəpədə və Alxantəpədə də çoxlu miqdarda obsidian daşları və onlardan düzəldilmiş əmək alətləri aşkar edilmişdir. Ehtimal etmək olar ki, Paşatəpə və Alxantəpə sakinləri də obsidian daşlarını qonşu yaşayış məskənlərindən birbaşa və ya mübadilə yolu ilə əldə etmişlər. Deyilən fikirləri nəzərə alaraq 3-cü fikrin daha inadırıcı olduğunu deyə bilərik. Yəni Əlikəməktəpə sakinləri obsidian daşını qonşu yaşayış məskənlərindən müxtəlif yollarla və ya vasitələrlə tədərük edə bilmişlər.

Əlikəməktəpə abidəsindən aşkar edilən daş əmək alətlərinin əksər hissəsini oraq dişləri təşkil edir. Əsasən dördkünc, yarpaqvari, seyment və.s formalarda olan oraq dişləri çaxmaq cinsli lövhə və qəlpələrdən düzəldilmişdir. Müxətlif formalı bu oraq dişlərinin ağzı əksər hallarda bir tərəfdən dişəklənmiş və istifadə zamanı azacıq kütləşmə və parıltı almışdır. Dişlərin birləşən hissəsində qətran izləri müşahidə edilmişdir ki, buda həmin dişlərin oraq əsasına məhz qətran vasitəsi ilə birləşdirildiyini göstərir. Qətran izlərindən oda aydın olur ki, dişlər oraq əsasına bucaq altında deyil, paralel qoyulmuşdur [8, s.62]. Bu tapıntı isə Əlikəməktəpədə düzəldilən quraşdırma oraqların Şomutəpə [21, s.48], Baba-dərviş [20, s.67-68] , Töyrətəpə [17, s.84] və Gürcistanın Şülaveri [18, s.28] və Aruxlu [18, s.24-25] abidələrindən tapılan quraşdırma oraqlardan daha çox fərqləndiyini göstərir. Qeyd edək ki, Leylatəpə mədəniyyətinə aid olan Böyük Kəsik [10, s.169] və Selaxan [10, s.171] abidələrində də Əlikəməktəpədə aşkar edilən orağın bənzər nümunələrinə rast gəlinmişdir.

Əlikəməktəpədə tapılmış bıçaqlar isə daş işləmə sənətinin yüksək inkişafından xəbər verir. Bıçaqlar uzun və enli obsidian daşının lövhələrindən düzəldilmişdir. Belə uzun bıçaqvari lövhələr Naxçıvanın Kültəpə I abidəsinin daş məmulatları üçün daha xarekterik olmuşdur [3, s.36-37]. Bununla belə bıçaqvvari lövhələrin bəzi nümunələri Azərbaycanın digər eneolit abidələri olan Xantəpə [6, s.78], Qarğalartəpə [5, s.27], Baba-dərviş [20, s.64-66] və.s abidələrdən də əldə edilmişdir. C.N.Bibikovun fikirincə eneolit dövründə bıçaqvari lövhələrə daha çox ehtiyac olmuşdur. Belə ki, bu dövrdən pardaxlama, mişarlama və deşmə üsullarının kifayət qədər inkişafına baxmayaraq, ev işləri və ovçuluq zamanı lazım olan kəsiçi və qaşovlayıcı alətləri az qüvvə sərf etməklə hazırlanmaq üçün məhz belə bıçaqvari lövhələrdən geniş istifadə edilmişdir [15, s.84]. Bundan başqa Əlikəməktəpədə əkinçilik mədəniyyəti ilə bilavasitə bağlı olan daş həvəngdəstələr, dən daşları, baltalar, çəkməçi bıçaqları və s [şəkil 1] tapılmışdır. Analoji əmək alətlərinin bir çox nümunələri 2013-2016-ci illərin tədqiqatları zamanı Polutəpə neolit abidəsində də aşkar edilmişdir [12, s.81-85].



Şəkil 1.

Əsasən yastı formada olan və məişətdə geniş istifadə edilən baltalar uzunsov çay daşlarından hazırlanmış və üzəri çilalanmışdır. Qeyd edək ki, burada 30-a qədər belə baltalar tapılmışdır. Bu baltaların oxşar nümunələri isə Urmiya gölü hövzəsinin cənubundakı Hacı-Firuz abidəsindən də əldə edilmişdir [22, s.107]. Əliköməktəpədə aşkar edilən dən daşları isə əsasən iki fərqli formadan ibarət olmuşdur. 1. Bir üzü işlənmiş və oval formalı dən daşları. 2.Hər iki üzü işlənmiş və yastı formalı dən daşları.

Hər iki formalı dən daşları abidənin müxtəlif tikinti laylarında bütöv və ya sınmış vəziyyətlərdə aşkar olunmuşdur. İşlənmiş üzləri və saxlanma vəziyyətləri aydın müşahidə olunmuşdur. Dənli bitkilərin döyülməsində və istehlaka hazır vəziyyətə gətirilməsində önəmli yerlərdən birini tutan dən daşları insanların erkən əkinçilik mədəniyyəti dövründə ixtira etdiyi ən qiymətli əmək alətlərindən biri olmuşdur. Bilavasitə əkinçilik mədəniyyəti ilə bağlı olan, müxtəlif forma və ölçüyə malik dən daşları Kültəpə I, Şomutəpə, Baba-dərviş, Töyrətəpə, Qarğalartəpə, Çalağantəpə və.s eneolit abidələrindən də kifayət qədər əldə edilmişdir [22, s.14-77]. Həmçinin, analoji əmək alətlərinin daha qədim nümunələri neolit yaşayış məskənləri olan İsmayılbəytəpə və Lələtəpədə də qeydə alınmışdır [7, s.85-88]. Dən daşlarının böyük bir qrupuna Leylatəpə mədəniyyətinə aid Leylatəpə, Böyük Kəsik, II Poylu, Selaxan, Qalayeri abidələrində də rast gəlinmişdir [9, s.163-178]. Qeyd edək ki, eneolit dövrünün məişət və təsərrüfat həyatında geniş yayılmış bu əmək alətlərinin bənzər nümunələri Muğanın Alxantəpə, Polutəpə, Paşatəpə və Qurudərə I abidələrində də aşkar olunmuşdur.


Qeyd etdiyimiz bu dən daşları ilə yanaşı Azərbaycanın eləcə də C.Qafqazın bizə məlum olan eneolit abidələri icərisində ilk dəfə Əliköməktəpədə qayıqvari dən daşları tapılmışdır. F.R.Mahmudova görə bu dən daşları C.Qafqazda sonrakı dövr olan Kür-Araz mədəniyyəti üçün xarekterik olmuşdur [8, s.63]. T.A.Bunyadov isə qayıqvari dən daşlarını ən qədim və ibtidai dən daşı hesab etmişdir [16, s.56].

Əlbəttə, Əliköməktəpədən qayıqvari dən daşlarının tapılması, bu alətin Azərbaycan və eləcədə C.Qafqaz ərazisində ən qədim və ibtidai və ya sonrakı dövrlərdə düzəldilməsi fikrini söyləməyə çox çətinlik törədir. Çünki Azərbaycanın və eləcə də C.Qafqazın digər ərazilərində erkən əkinçilik mədəniyyəti dövrünə aid olan yüzlərlə abidələr qeydə alınsada, həmin abidələrdə hələ də ilkin və ya əsaslı arxeoloji tədqiqat işləri aparılmamışdır. Bununla belə Əliköməktəpədən tapılan qayıqvari dən daşları

öz qədimliyi baxımından Übeyd mədəniyyətinə aid olan III Yarımtəpə abidəsindən [19, s.147] tapılan qayıqvari dən daşlarının oxşar nümunəsidir. Qeyd edək ki, qayıqvari formalı dən daşı Qarabağda yerləşən neolit abidəsi olan Lələtəpədə də aşkar olunmuşdur [7, s.88]. Bundan başqa 2013-2014 cu illərin tədqiqatları zamanı Goranboy rayonunda yerləşən eneolit və erkən tunc dövrünə aid edilən Gölyeri abidəsində də qayıqvari dən daşları aşkar edilmişdir [5, s.109]. Həmçinin Böyük Kəsik yaşayış məskənində ensiz, uzunsov və bəzi hallarda isə iri ölçülü qayıqvari formalı dən daşları aşkar olunmuşdur [10, s.32]. Bütün bu tapıntılar isə qayıqvari formalı dən daşlarının Əlikəməktəpədən başqa Azərbaycanın digər həmdövr abidələrində də istehsal olunduğunu göstərir. Buradan belə görünür ki, artıq neolit dövründən başlayaraq qayıqvari formalı dən daşları, digər formalı dən daşları ilə bərabər düzəldilməyə başlanılmışdır. Ümumiyyətlə, ehtimal etmək olar ki, erkən əkinçilik dövrünün ustaları əldə etdikləri xammala uyğun olaraq dən daşlarını qayıqvari, oval və ya yastı formalı düzəltmişlər.

Dəni üyütmək üçün dən daşları ilə bərabər istifadə edilən digər əmək aləti isə həvəngdəstələr olmuşdur. Müxtəlif ölçülərdə olan həvəngdəstələrə bütün inşaat qatlarında bütöv və sınmış halda rast gəlinmişdir. Əlikəməktəpədə tapılan həvəngdəstələrin bənzər nümunələri, Muğanın Alxantəpə (bir neçə ədəd), Qurudərə I (1 ədəd bütöv halda həvəng), Qurudərə II (uzunsov formalı həvəngdəstələr) abidələrindən və eləcə də neolit dövrü abidəsi Polutəpədən [13, s.56] aşkar edilmişdir. İnsanların məişət həyatında önəmli yerlərdən birini tutan həvəngdəstələr Azərbaycanın eneolit və Kür-Araz mədəniyyətinə aid olan bütun abidələrdən o cümlədən Leylatəpə [9, s.163], II Poylu [9, s.166], Qalayeri [9, 174], Yeniyol [11, s.96], Gölyeri [5, s.110], Ərəbyengicə [2, s.100] və.s. abidələrindən kifayət qədər əldə edilmişdir.

Bütün bunlardan başqa Əlikəməktəpə abidəsində çaxmaqdaşı və obsidiandan düzəldilmiş, çoxlu sayda alət və əşyalarda tapılmışdır ki, onlarda qaşovlar, sıyırğalar, işkənəvari alətlər, kəsiciləri və burğulardan ibarətdir [8, s.63] [şəkil 2]. Bu alətlərin də hər birinin məişət və təsərrüfatda ayrı-ayrılıqda öz funksiyası olmuş və insanlar öz gündəlik yaşayış qayğılarını onlardan istifadə etməklə həll etməyə çalışmışlar. Qeyd edək ki bu alətlərdən əkinçilik, maldarlıq və sənətkarlığın müxtəlif sahələrində geniş isdifadə edilmişdir. Analoji əmək alətləri Muğanın digər həmdövr yaşayış məskənləri olan Polutəpədə [12, s.83-84], Alxantəpədə [1, s.65-66] və eləcə də Leylatəpə mədəniyyətinə aid bütün abidələrdə [9, s.163-179] aşkar edilmişdir.



Şəkil 2.

Erkən əkinçilik mədəniyyəti dövrü ilə bağlı olan əmək alətlərinə sonrakı dövrlərdə də rast gəlinmişdir. Belə ki, düzəldilmə forma və üsullarına görə heçdə eneolit dövrü abidələrindən o qədərdə

fərqlənməyən bu əmək alətləri əsasən oraq dişləri, dən daşları, həvəngdəstələr, sıyırğalar və digər müxtəlif təyinatlı kəsiçi alətlərdən ibarətdir. Adlarını qeyd etdiyimiz bu əmək alətləri Cənub-Şərq bölgəsinin Kür-Araz mədəniyyəti dövrü abidəsi olan Mişarçay I abidəsindən də əldə edilmişdir. Azərbaycanın Kür-Araz mədəniyyəti dövrünü səciyyələndirən Mingəçevir, Kültəpə I abidəsinin III təbəqəsi, Baba-dərviş, Qraköpəktəpə, Günəştəpə, Məntəştəpə və Uzuntəpə abidələrindən də kifayyət qədər belə əmək alətləri əldə edilmişdir [4, s.33-40].

Əliköməktəpədən qeyd etdiyimiz əmək alətləri ilə yanaşı daşdan düzəldilmiş müxtəlif formalı və naxışlı daş muncuqlar və digər bəzək əşyaları da aşkar edilmişdir. Daş məmulatlarının bəzək əşyaları kimi istifadəsi isə bu dövr insanlarının estetik düşüncələrini ortaya qoymaqla yanaşı, onların estetik zövqünə dair də qiymətli məlumatlar verir.

Nəticə. Beləliklə, Cənub-Şərq bölgəsinin əsas eneolit dövrü abidəsi olan Əliköməktəpənin daşdan düzəldilmiş əmək alətlərinin əksər hissəsi bilavasitə erkən əkinçilik mədəniyyəti ilə bağlı olmuşdur. Əliköməktəpə abidəsinin daş məmulatları üzərində aparılmış tədqiqatlar nəticəsində maraqlı nəticələr əldə edilmişdir. Bu abidə də tapılan daş məmulatları, əsasən burada yaşayan insanların gündəlik həyatında istifadə etdikləri məişət və təsərrüfat alətləri olmuşdur. Əliköməktəpədə tapılan daş məmulatları, xüsusən daşdan hazırlanmış dən daşları, həvəngdəstələr, baltalar, bıçaqlar, kəsici alətlər və ovçuluqda istifadə olunan alətlər, qədim insanların əmək fəaliyyətləri və yaşayış tərzi barədə mühüm məlumatlar vermişdir. Daş məmulatları hazırlanarkən müxtəlif daş növlərindən, xüsusilə də sərt və dayanıqlı daşlardan istifadə edilmişdir. Daşın seçilməsi və üzərində işlənməsi üçün xüsusi alətlərdən istifadə edilmişdir. Bu alətlərin dəqiqliyi və incəliyi, həmin dövrün insanlarının texniki biliklərinin yüksək olduğunu göstərmişdir. Ümumilikdə, Əliköməktəpə abidəsində tapılan daş məmulatları, qədim insanların həyat tərzi, texniki bilikləri və estetik düşüncələri barədə dəyərli məlumatları təqdim edir. Bu tədqiqatlar, tarixin dərinliklərinə işıq salmaqla yanaşı, həmin dövrün mədəni irsi barədə də daha ətraflı təsəvvür yaratmağa kömək edir.

ƏDƏBİYYAT

1. Axundov T.İ. Alxantəpə yaşayış yeri. Bakı, 2021, AMEA Tarix İnstitutu, 724 s.
2. Baxşəliyev V.B., Seyidov A.Q. Ərəbyengicədə 2013-cü ilin Arxeoloji araşdırmaları. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Azərbaycanda Arxeoloji Qazıntılar, 2013-2014. Bakı, 2015, 419s.
3. Həbibullayev O.H. Kültəpə arxeoloji qazıntıları. Bakı, EA nəşriyyatı, 1959, 327 s., Tablo II-IV.
4. Hüseynov M.M., İsmayılov Q.S., Quliyev N.M. Azərbaycanın arxeoloji abidələri. Bakı, Azərnəşr, 1981, 96 s.
5. Hüseynov M.M., Hüseynova.T.T., Ələsgərov A.S. Naftalan-Goranboy arxeoloji ekspedisiyasının 2013-2014-cü illərdə apardığı tədqiqatlar haqqında (Goranboy bölgəsi), AMEA, Arxeologiya və Etnoqrafiya institutu, Azərbaycanda Arxeoloji tədqiqatlar, 2013-2014. Bakı, 2015, 419 s.
6. İsmayılov Q.S. Xantəpə eneolit abidəsi və onun Azərbaycanın həmdövr abidələri arasında yeri. Daş dövrü və Azərbaycanda eneolit. Bakı, 1984, 96 s.
7. Qarabağ: Maddi, mədəni və mənəvi irsimiz. I kitab - Arxeoloji tədqiqatlar. Bakı, Afpoligraf, 2023, 368 s.
8. Mahmudov F.R. Əliköməktəpəsində arxeoloji qazıntıların ilkin yekunları. Daş dövrü və Azərbaycanda eneolit. Bakı, ADU, 1984, 96 s.
9. Müseyibli N. Leylatəpə mədəniyyəti. Bakı, "Elm və təhsil", 2020, 576 s.
10. Müseyibli N. Böyük Kəsik. Eneolit dövrü yaşayış məskəni. Bakı, Nafta-Press, 2007, 227 s.
11. Seyidov A.Q. (UNEC) Babək və Culfa rayonları ərazisində 2015-ci ildə aparılmış arxeoloji qazıntı işləri. (Babək, Culfa rayonları). AMEA Arxeologiya və Etnoqrafiya institutu. Azərbaycanda Arxeoloji tədqiqatlar, 2014-2015. Bakı, 2017, 488 s.
12. Ахундов Т.И., Махмудова В.А., Гасанова А.М., Рамазанлы Г.Х., Рахманои А.А. Археологические исследования 2015-2016 гг. Муганской неолит-энеолической экспедиции, AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu. Azərbaycanda Arxeoloji tədqiqatlar, 2015-2016, Bakı, 2017, 488 s.

13. Ахундов Т.И, Махмудова В.А, Гасанова А.М, Рамазанлы Г.Х, Рахманои А.А, Велиев С.С., Тагиева Е.Н., Гурбанов Т.Р. Работы Муганской неолит-энеолической экспедиции в 2013 году, (Cəlilabad rayonu). AMEA, Bakı, 2015, 419 s.
14. Аразова В.В. Каменные орудия эпохи энеолита Азербайджана (обсидиан и кремень) Автореферат канд. дисс. Баку,1974, 21 с.
15. Бибиков С.Н. Раннетинольское поселение Лука-Врублещкая на Днестре // МИА, № 38, М.-Л., 1953, 460 с.
16. Бунятов Т.А. Земледелие и скотоводство в Азербайджане в эпоху бронзы. Баку, Издательство "АН Азерб ССР", 1957, 56 с.
17. Дадашов А.И. Жагвенные орудия из энеолитических памятников Азербайджана. Daş dövrü və Azərbaycanda eneolit, Bakı, 1984, 96 с.
18. Кушнарева К.Х. Удбинишвили Т.Н. Древние культуры Южного Кавказа. Ленинград, 1970, 288 с.
19. Мерперт И.Я., Мунгаев Р.М. Поселение Убейдской культуры Ярымтепе III в Северной Месопотамии. // СА, Москва,1982 №4,147 с.
20. Исмаилов Г.С. Археологическое исследование древнего поселения Баба-Дервиш, Баку, 1978, 102 с.
21. Нариманов И.Г. Археологические исследования поселения Шомутепе в 1963 г. // «Археологические исследования в Азербайджане» Баку, 1965, 98 с.
22. Нариманов И.Г. Культура Древнейшего земледельческо скотоводческого населения Азербайджана. Баку, Элм, 1987, 259 с.

ФУАД ГУСЕЙНОВ
Научный сотрудник Ленкоранского Регионального Научного Центра НАНА

КАМЕННЫЕ ОРУДИЯ ТРУДА ПАМЯТНИКА АЛИКЁМЕКТЕПЕ

В статье представлена информация о различных каменных орудиях труда, обнаруженных во время археологических раскопок, проведенных в 1970-х годах на энеолитическом памятнике Аликёмектепе, древнем поселении эпохи раннего земледелия, расположенном в Джалилабадском районе Муганской степи юго-восточной части Азербайджана. Указанные орудия принадлежат оседлым земледельческим и скотоводческим племенам и играли важную роль в их бытовой и хозяйственной жизни. Жители Аликёмектепе, подобно жителям других современных поселений Азербайджана, использовали в быту и хозяйстве каменные жернова, ступки, топоры и различные режущие инструменты, умело изготовленные из обсидиана и кремня. Также в статье приводится сравнительный анализ каменных орудий труда, использованных жителями Аликёмектепе, с орудиями, обнаруженными на других энеолитических памятниках Азербайджана, и рассматривается вопрос о том, как добывались сырьевые материалы для изготовления этих орудий и возможные экономические связи с соседними племенами.

Ключевые слова: жернов, ступка, топор, сапожный нож, зуб серпа, ножевидная пластина, скребок, струг, долотовидний инструмент.

FUAD HUSEYNOV
Researcher of Lankaran Regional Scientific Center of ANAS

STONE TOOLS FROM THE ALIKOMEKTEPE SITE

The article provides information about various stone tools discovered during archaeological excavations conducted in the 1970s at the Alikomektepe site, an ancient settlement from the early agricultural period located in the Jalilabad district of the Mughan region, which is part of the southeastern region of Azerbaijan. These tools belong to sedentary farming and herding tribes and played

a significant role in their daily and economic life. Like the inhabitants of other contemporary settlements in Azerbaijan, the residents of Alikomektepe used grinding stones, mortars, axes, and various cutting tools skillfully made from obsidian and flint in their domestic and economic activities. Additionally, the article presents a comparative analysis of the stone tools used by the inhabitants of Alikomektepe with those discovered at other Eneolithic sites in Azerbaijan, and touches upon how the raw materials for these tools were obtained and the potential economic connections with neighboring tribes.

Keywords: grinding stone, mortar, axe, cobbler's knife, sickle tooth, knife-like blade, scraper, adze, chisel-like tool.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Mayis Cəfərov, t.e.d. Əmrah Dadaşov.